# TARİX

**AMƏNƏ ELDAR qızı KƏRBALAYEVA**
*Qərbi Kaspi Universiteti*
*Tarix üzrə fəlsəfə doktoru*
E-mail: kerbalayeva-amin@mail.ru

## XVI ƏSRİN SONLARINDA AZƏRBAYCANDA CƏLALİLƏR HƏRAKATININ GENİŞLƏNMƏSİ VƏ AZƏRBAYCANA YAYILMASI

**Xülasə:** XVI əsrin sonlarında Osmanlı imperiyasının Avropa dövlətləri və səfəvilərlə uzun sürən müharibələri xalqın vəziyyətini xeyli ağırlaşdırmış, iqtisadi böhrana yol açmış, bazarlarda qiymətlərin artmasına, vergilərin ağırlaşmasına, məmurların özbaşınalığına səbəb olmuşdu. Həmin hadisələrin çoxu Şərqi Anadoluda baş verdiyinə görə hər iki tərəf (Osmanlı sarayı və Səfəvi iqtidarı) qarşılıqlı mübarizədə Cəlalilərin yardımından istifadə etmək niyyətində idi. Lakin həmin hadisələrin təhlili göstərir ki, Şərqi Anadolu tarixi Azərbaycan torpaqları olduğuna görə bu hadisələr Azərbaycanın bilavasitə Cəlalilər hərəkatının əsas mərkəzi kimi dəyərləndirməsinə tam əsas verir. Cəmiyyətdə baş verən ictimai- iqtisadi vəziyyət Cəlalilər hərəkatının genişlənməsinə şərait yaratmışdır. Belə bir vəziyyətdə Cəlalilər hərəkatına nəinki zəhmətkeş kütlələrin nümayəndələri, həmçinin hakimiyyətdən narazı torpaq sahibləri, sipahilər və hətta bəzən əyalət başçıları da qoşuldular. Ona görə də “Cəlalilər hərəkatı” sarayda, hökumət dairələrində və əhali arasında baş vermiş böhrana və özbaşınalığa qarşı çevrilmiş bir hərəkat olmuşdusa da, digər tərəfdən bu hərəkata qarətçilik və özbaşınalıqla məşğul olan qüvvələr də qoşulmuşdular. XVII əsrin əvvəllərində I Şah Abbasın osmanlılara qarşı hərbi əməliyyatlara yenidən başlaması hərəkatın Azərbaycanda da geniş yayılmasına şərait yaratdı. Osmanlılara qarşı müharibənin gedişində I Şah Abbas Cəlalilər hərəkatının iştirakçısı olan ayrı-ayrı dəstə başçılarını rəsmi qaydada səfəvi qızılbaş ordusunun tərkibinə daxil etdiyi üçün Azərbaycan torpaqları nın osmanlı işğalından azad edilməsində ayrı-ayrı Cəlali dəstələri iştirak etdilər.
**Açar sözlər:** Səfəvi, Osmanlı, Cəlalilər, hərakat, Azərbaycan.
**UOT:** 93/94

**DOI:** doi.org/10.54414/ckml6947

### Giriş

1590-cı ildə Osmanlı-Səfəvi sülh müqaviləsi bağlandıqdan sonra Osmanlı imperiyası tərkibinə qatılmış Azərbaycan torpaqlarında işğalçı hakimiyyət orqanlarına qarşı üsyanlar “Cəlalilər hərəkatı” adı ilə məşhur olmuşdur [1, s.188]. Uzun müddət ərzində XVI əsrin sonu – XVII əsrin əvvəllərində Şərqi Anadoluda baş vermiş Cəlalilər hərəkatı tarix ədəbiyyatında yalnız “Türkiyə, Osmanlı amili” kimi qeyd olunmuş və həmin hərəkatın qonşu ölkələrdə yayılması problemi tədqiq edilməmişdir [2, s. 52]. Lakin eyni ərazi və etnik birlik olan yerdə baş vermiş müəyyən bir hadisə (məhəlli səciyyə) daşıya bilməz. Cəlalilər hərəkatının çox geniş ərazini əhatə etməsi yazılı qaynaqlarda öz əksini tapmışdır. Arakel Təbrizli bu barədə yazır: “Konstantinopolun [İstanbulun– A.K.] kənarlarından İrəvan şəhərinə, Bağdaddan Dəmir Qapıya (Dərbəndə), Ağ (Aralıq-A.K.) dənizdən Qara dənizə qədər bütün bu ölkələr qarət edildi və murdar olundu” [3, s.95; 2, s.94-95]. Göründüyü kimi, bu müəllif həmin hərəkatın şərq hüdudlarını İrəvan şəhəri ilə məhdudlaşdırır. Lakin yazılı qaynaqlardan və aparılan araşdırmalardan məlum olur ki, yüz minlərlə kəndlinin iştirak etdiyi bu əzəmətli hərəkat Azərbaycan ərazisinə də yayılmış və daha geniş əraziləri əhatə etmişdi [3, s.326].

1591-ci ildə Təbriz əhalisinin üsyanı Cəlalilər hərəkatının növbəti təzahürü idi. Bu üsyanda şəhərdə yerləşdirilmiş Osmanlı döyüşçülərinin bir hissəsi də iştirak edirdi. Osmanlı əsgərlərinin bu üsyanın fəal iştirakçısı kimi çıxış etməsi onların uzun müddət ərzində məvacib almaması ilə əlaqədar idi. Osmanlı əsgərlərinin təbrizlilərin üsyanına qoşulması onların Azərbaycandakı hökmranlığı üçün böyük təhlükə törədirdi.

Üsyançılar öncə cəbbəxananı ələ keçirdilər. Lakin üsyan rəhbərləri aydın məqsəd və qətiyyət nümayiş etdirmədilər. Təbriz hakimi Cəfər paşa bundan istifadə edərək üsyanı amansızcasına yatırdı [2, s.53].

**Əsas mətn**

İsgəndər bəy Münşi "cəlali" sözünü ilk dəfə 1605-ci ilin hadisələri ilə bağlı olaraq "Cığaloğlunun fərar etməsinin zikri, sağ qalmış rumilərin əhvalının bəyanı və aləm Pərvərdigarın köməyi ilə qalibiyyətli əsgərlərin qalib gəlmələrinin şərhi" adlı bölməsində işlətmişdir. Onun hekayətindən aydın olur ki, "sərdar ... pərişanlıqla fərar etdikdən sonra bir neçə adamla özünü Vana çatdırdı, orada müzəffər şah ordusunun Səlmasa doğru gəldiyini eşidib narahat oldu, Diyarbəkir yolunu önə tutdu, yol gedən zaman Canpolad oğluna çatdı. Söhbət vaxtı sərdar onu orduya gec gəlib çıxdığı üçün danladı və sərdarın işarəsi ilə pusquda duran bir neçə döyüşçü ilə irəli gələrək onu qətlə yetirdilər. Kəsik başını əsgərlərin əksəriyyəti ad-sansız və əsl-nəcabətsiz ləvəndlər olan Hələb qoşununun içərisinə tutdular. Bunu görən Hələb qoşunu dağılmağa başladı və Hələbə doğru üz tutdu. Qoşunun başqa bir dəstəsi isə onun (sərdarın - Ş.F.) başına yığıldı və onlar cəlali oldular" [4, s.1275-1275].

İsgəndər bəy Münşi bu dövrdə Osmanlı dövləti ilə sərhədlərdə geniş vüsət alan Cəlali hərəkatını, onun geniş yayılmasının səbəblərini belə izah edir: "Qoy bunlar huşu iti olan bilik sahiblərindən və iti huşlu söz dinləyicilərindən gizli qalmasın. Buna görə də müəllif hazırcavab qələmin köməyi ilə cəlalilərin əhvalı barədə sirr səhifələrini yazmağa başladı. Rumiyə və rumiləri dövrün padşahına asi olub qarətçilik və vilayətlərin viran edilməsi ilə məşğul olan adamları "cəlali" adlandırırlar. Bizim naqis düşüncəmizə görə "cəlali" ifadəsinin mənası belədir: Təbiətlərində rəhm və əfv olmayan cəlalilər özlərinin qüdrətini, cah-cəlalını nümayiş etdirmək istəyirlər. Xülasə, Rum vilayətində bu dövrdə qarışıqlıq salan və "birinci cəlali" sayılan mənfur rumi yazarlarından olmuşdur. O, "Qara Yazıcı" adı ilə məşhur olub Sultan Məhəmməd xan ibn Sultan Murad xanın hakimiyyəti illərində Amasya və Toqat ərazilərində üsyana və fitnəkarlığa başlamış, bir dəstə alçaq və avara adamı qarət yolu ilə yolçulardan və tacirlərdən ələ gətirilən dirhəm və dinarla şirnikləndirib aldatmış, həmin yerlərdə öz şücaət və səxavəti ilə ad çıxarmışdı. Bir dəstə süst iradəli avara və bədbəxt ləvənd adam dirhəm və dinara tamah salıb bir neçə gündən bir vilayətlərə hücum edir və bir müddət orada qalırdılar. Qara Yazıcının əsgərləri dörd-beş min nəfərə çatırdı" [4, s.1378-1379].

Arakel Təbrizlinin Cəlalilər hərəkatı ilə bağlı verdiyi məlumat oxşar məzmunu ilə seçilir: "Birincisi, Qara Yazıcı çoxlu süvarilərlə 1598-ci ildə hökmdara qarşı üsyan edib Urfa şəhərinə gəldi. Orada möhkəmləndi... Onların hamısı padşaha tabe olmayan cəlali idi. Onlar heç yerdə qərar tutmurdular, ölkəni qarət edib dağıdırdılar. Onlar yaradıcılıq haqqında məlumat gələn yerlərə tələsərək oraya üz tutur və qarət edib dağıdaraq hamısına od vururdular... Buna görə də rəiyyət və əkinçilər qorxu və vahimə ilə qaçır, qalalarda, qəsrlərdə və dağ mağaralarında sığınaraq əkinçiliklə məşğul ola bilmirdilər. Buna görə də əkin və biçin... dayandırılmış, çörək qıtlığı yaranmışdı... Bir şey əldə etmək mümkün deyildi... Qiymətlər çox yüksək idi" [3, s. 94-95; 2, s. 94].

Azərbaycan xalqının azadlıq mübarizəsi Osmanlı imperiyası daxilində baş verən xalq hərəkatı ilə səsləşir və üzvi şəkildə birləşirdi. Təbriz şəhərinin əhalisi vətəni Osmanlı hakimlərindən müdafiə etmək üçün dəfələrlə silaha sarılmışdı. İsgəndər bəy Münşi qeyd edirdi ki, Təbrizi ələ keçirmək tapşırığını almış Osman paşa hücum ərəfəsində tamamilə "ehtiyatlı və təmkinli" olmağa çalışırdı [2, s.53; 5, s.245].

Qeyd edək ki, Təbriz üsyanının məğlubiyyəti Azərbaycanda Cəlalilər hərəkatının hələ sonu demək deyildi. İsgəndər bəy Münşi Osmanlı-Səfəvi müharibələrinin növbəti mərhələsi (1603-1607) ərəfəsində Səfəvi dövləti ilə həmsərhəd olan Osmanlı ərazisində Cəlalilər hərəkatının genişlənməsini "I Şah Abbasın Azərbaycanı, Cənubi Qafqazı azad etmək məqsədilə hərbi yürüşə çıxmaq qərarı" ilə əlaqələndirirdi. Onun fikrincə, Osmanlı dövlətinə qarşı müharibəyə başlamaq qərarına gəlmiş I Şah Abbas belə hesab edirdi ki, "irsən bizim müqəddəs nəslimizə məxsus olan Azərbaycan və Şirvan ölkələrini sayca az olan və öz padşahına qarşı mübarizə aparan cəlalilərin hakimiyyəti altında saxlamaq, həmin ölkələrin fəth olunması üçün yaranmış əlverişli məqamı əldən vermək ağıllı şəxslərə xas olmayan hərəkətdir" [2, s.53; 1, s.187].

Səfəvi qoşunlarının ardıcıl olaraq Azərbaycana və qonşu ərazilərə müdaxiləsi Cəlalilər hərəkatının zəifləməsinə deyil, güclənməsinə səbəb oldu. I Şah Abbasın xarici siyasəti, xüsusilə böyük əhali kütləsinin vətəndən zorla köçürülməsi cəlalilər hərəkatının genişlənməsi üçün əlverişli şərait yaratdı. Artıq bu hadisələr hərəkatın çox geniş bir ərazini əhatə etməsindən xəbər verir [3, s.95; 2, s.69].

Qaynaqlardan görünür ki, bu zamandan etibarən cəlalilərə verilmiş adlardan biri də "sil-süpürcülər" [4, s.1853] idi. Ş.F.Fərzəlibəylinin şərhindən aydın olur ki, "sil-süpürcülər" Cəlali döyüşçülərinə verilmiş ad idi, "onlar Rum (Osmanlı – A.K.) dövlətinə qarşı çıxaraq qızılbaşlara qoşulmuşdular. Həmin kütlələr (Cəlalilər-A.K.) qarşısına çıxan hər yeri qarət məqsədi ilə silib-süpürdükləri üçün belə adlandırılmışdı" [4, s.1853].

Dövrün qaynaqlarının verdiyi məlumatlardan görünür ki, Qara Yazıcı üsyanı yatırıldıqdan sonra ayrı-ayrı Cəlali dəstələri Azərbaycan ərazisinə daxil olmuşdur. Arakel Təbrizlinin şərhində Osmanlı-Səfəvi sərhəd bölgələrində baş vermiş Cəlali hərəkatı təfsilatı ilə təqdim edilir. Əsərin xristian baxışından yazılmasına baxmayaaq, burada Cəlali hərəkatının mahiyyəti haqqında dolğun təsəvvür əldə etmək mümkündür: "Beləliklə, şahid-müasirlər danışdığı kimi, həmin günlərdə yaxşı işlərin işartısı yox idi. Yalnız qəmqüssə ... Şərqin hökmdarı şah Abbas fars (qızılbaş-A.K.) qoşunları ilə olkənin şərq əyalətlərini dağıtdı. Cəlalilər isə ölkənin şərq əyalətlərinin bir hissəsini daha çox dağıdıb murdar etdilər. Osmanlı sərdarı öz qoşunları ilə Konstantinopoldan [İstanbuldan -A.K.] İrəvana qədər [nahiyələri] qarət etdilər. Həmin vaxt Osmanlı ölkəsində baş qaldırmış cəlalilər onlardan daha çox qarətçi idilər" [3, s.95; 2, s.93]. Arakel Təbrizlinin digər məlumatında deyilir: (Azərbaycanın) İrəvan bölgəsi "iki fateh, yəni şah və Cığaloğlu arasında tam boşaldılmışdı. Şah Təbrizə yola düşmüşdü və (buna görə) əlçatmaz idi. Osmanlı sərdarı isə öldü. Osmanlıların özləri isə bir-biri ilə döyüşdülər və onlar arasında birlik yox idi.Ona görə də bundan ruhlanmış və öz gücünə arxalanan bəzi paronlar (üsyançılar)... İrəvanı ələ keçirdilər. Belə ki, Məhəmməd Kənəkirli gəlib ölkəni ələ keçirdi. Bundan sonra cəlalilərdən olan Zial paşanın oğlu, "Topal Osman paşa" adlanan başqa bir paşa gəlib hazırda "Qırxbulaq" adlanan nahiyədə, Arinc kəndinin yaxınlığında Kənəkirli Məhəmmədlə toqquşaraq onu qovdu. Osman paşa öz ətrafına çoxlu avara adam toplayaraq min nəfərdən ibarət olan qoşun təşkil etdi, qalmaq üçün özünə Qarbi kəndini seçdi. O, orada qışladı" [3, s.95; 2, s.89]. Arakel Təbrizlinin bu məlumatından görünür ki, cəlalilərin öz aralarında da münasibətlər birmənalı deyildi və onlar müəyyən bir əraziyə sahib olmaq uğrunda mübarizə aparırdılar. Topal Osman paşanın rəhbərliyi altında olan cəlalilər Qarbi kəndini özünə mərkəz seçdikdən sonra kiçik dəstələrlə Araz çayının hər iki sahilində fəaliyyət göstərirdilər [2, s.54; 1, s.189]. Arakel Təbrizlinin fikrincə, İrəvan bölgəsində Əbdürrəhman Müsəllimin rəhbərliyi altında digər cəlali dəstəsi də fəaliyyət göstərirdi [3, s.95; 2, s.54; 1, s.189].

A.Təbrizli baş vermiş hərəkata kilsə-feodal mövqeyindən yanaşsa da, cəlalilərin "əsilzadə, hər şeyə qalib döyüşçü, əyilməz cəngavər olduqlarını" etiraf edirdi [3, s.93-94; 6, s.55; 1, s.188].

Arakel Təbrizlinin Cəlalilər haqqında olan məlumatlarının təhlili sübut edir ki, "onlar (bu torpaqlarda – A.K.) çoxluq təşkil edirdi" [3, s.95; 2, s.94]. Tədqiqatçılar bir çox hallarda tarixi hadisələrə Azərbaycanın müasir sərhədləri çərçivəsində yanaşdıqları üçün sərhəd məsələlərində müəyyən yanlışlığa yol verirlər. Bu yanlışlıq uzun illər Cəlalilər hərəkatı tarixinin yalnız "Türkiyə tarixi məsələsi" [2, s.54] kimi təqdim olunmasına gətirib çıxarmışdır. Əgər biz Şərqi Anadolunu, xüsusilə Diyarbəkri Azərbaycan Ağqoyunlu dövlətinin ərazisi kimi qəbul ediriksə, bu torpaqlar yalnız 1517-1555-ci illər ərzində osmanlılar tərəfindən tutulmuşdursa, bu halda Azərbaycan Cəlalilər hərəkatının əsas mərkəzi hesab olunmalıdır.

I Şah Abbas tarixi Azərbaycan torpaqlarını geri qaytarmaq üçün Osmanlı imperiyası ilə mübarizədə iki cəbhədə fəaliyyət göstərirdi: O, Qərb dövlətləri ilə ittifaq yaratmaqla osmanlıların qüvvələrini oraya yönəltmək istəyirdi; I Şah Abbas cəlaliləri himayə etməklə osmanlıların nəzarət etdikləri ərazidə sosial-siyasi qeyri-sabitlik yaradırdı. İsgəndər bəy Münşinin məlumatları fikrimizin düzgün olduğunu təsdiqləyir. I ŞahAbbasın cəlalilərə iltifat göstərməsi, onlara bəxşiş və xələtlər verməsi [4, s.1391-1392] səbəbsiz deyildi.

İsgəndər bəy Münşi yazır: “Həsən Yazıcı Rumeliyə göndərildikdən sonra “Canpolad adlı birisi özünü cəlalilərə başçı təyin edib Hələb ərazisində fitnəkarlıq törətməyə başlamışdı. Sabiq hərəkəti yenidən ifa etməyə başlayan Canpoladın yanına bir çox avara adam yığışdı. Ərzurumda “Qaraqaş” adlı bir adamın da ürəyinə bu həvəs düşdü və o da bir müddət ixtilaf meydanına əl-ayaq atdı” [4, s.1383].

Osmanlı dövlətində hakimiyyətə gəlmiş yeni Sultan Əhməd “Cığaloğlu” adı ilə tanınmış Sinan paşanı “baş vəzir və sərdar təyin edib qızılbaş sərhədlərinə göndərdi”. Ərzurumda Qaraqaşla və onun bir neçə adamı ilə görüşmüş Sinan paşa onları əməllərindən çəkindirə bildi [4, s.1384].

İsgəndər bəy Münşinin məlumatından görünür ki, Sinan paşa cəlalilərin gücündən qızılbaşlara qarşı istifadə etmək niyyətində idi. “Ertəsi il [1608/1609-cu il – A.K.] qızılbaş hücumundan qaçan Sinan paşa Vandan Muş səhrasına gələrək həmin vaxt Hələbdə olan Canpoladı da nəsihətlərlə itaətə gətirib, onu Hələb vilayətinin və əhalisinin idarə olunmasına namizəd etdi. O, Canpolada nəvaziş məktubları göndərib qızılbaş fitnəsinin dəfini ondan xahiş etdi. Canpolad bu xəbərdən şadlanıb müxalifətindən əl çəkdi və söz verdi ki, münəzzəm bir qoşunla gəlib sərdarın qoşununa qoşulacaqdır” [4, s.1384]. Göründüyü kimi, Canpolad sərdarın bu təklifini qəbul edərək üç min süvarisi ilə birlikdə Təbriz yaxınlığında “Təsuc” adlı yerdə qızılbaşlarla döyüşən Sinan paşaya yetişdi. Lakin o, osmanlıların məğlubiyyətini gördükdə “fərar yolunu tutdu” [4, s.1384.] Canpoladın bu hərəkəti ona çox baha başa gəldi, çünki o, Van yaxınlığında sərdarla görüşəndə qətlə yetirildi [4, s.1384]. Canpolad öləndən sonra onun “Cığaloğlu” adı ilə məşhur olan oğlu “müxalifət təbilini çalaraq Hələbi zəbt etdi” [4, s.1384]. Qaynaqdan göründüyü kimi, onun ətrafında 20 minədək Cəlali toplaşmışdı və o, atasının ölümündən sonra Osmanlı sultanına qarşı “müxalifət bayrağını yuxarı qaldırdı”. Lakin tezliklə o, Diyarbəkrə gələndə “axirət aləminə” qovuşdu [4, s.1385]. İsgəndər bəy Münşi onun ölüm səbəbini göstərmir. Lakin bundan sonra cəlalilər “Qələndəroğlu” adı ilə məşhurlaşmış Məhəmməd paşanın ətrafında toplaşmağa başladılar. İsgəndər bəy Münşinin məlumatına görə, bu zamandan etibarən “Bursanın Məhmiyyəsindən başlamış Ərzurumadək bütün Anadolu vilayətləri Cəlali dəstələri atlarının ayağı altında qaldı və məmləkətlər tamamilə viran oldu” [4, s.1385].

Sultan Əhməd “Qələndəroğlu üsyanını” yatırmaq üçün Murad paşanı baş vəzir və sərdar təyin etdi. Murad paşa qərbdə “firənglərlə” döyüşdükdən sonra “Rumeli, Qapıqulu, Anadolu, Müntəşaeli, Qaraman, Trablis və başqa Osmanlı məmləkətlərindən ağır qoşun toplayıb cəlaliləri dəf etməyə yollandılar” [4, s.1385]. Murad paşa Canpoladın fitnəsini aradan qaldırmaq üçün Hələbə gəldi. Canpoladın oğlu orada onun qarşısına 20 min ləvənd çıxardı. Murad paşa “tədbir və hiyləgərliklə” qalanı aldıqdan sonra “Canpoladoğlundan və canpoladlardan əsər-əlamət qoymadı”, sonra isə başqa cəlaliləri dəf etməyə yollandı. İsgəndər bəy Münşinin məlumatından aydın olur ki, həmin hadisələrdə Təvil də “fani cahandan axirət sarayına” yola düşdükdən sonra onun 2 min döyüşçüsü qardaşı Məhəmməd bəyi ələ alıb Qələndəroğluna birləşdilər. Həmin məqamda bədəvi ərəblərindən olan Qara Səid də onlara birləşdi [4, s.1386] .

İsgəndər bəy Münşinin məlumatına görə “meymun ilində”, yəni 1607 / 1608-ci ildə Murad paşa əsgərləri toplayaraq cəlalilərə tərəf hərəkətə başladı. Qələndəroğlunun tərəfində Qara Səid Ərəb, Təvilin qardaşı, Kürd Heydər, Ağacdan Biri, Kökəc Məhəmməd, Hüseyn bəy Əzmavut, Qara Hüseyn, Timal İsa və başqaları döyüşə gəlmişdilər. Cəlalilərin döyüşkənliyindən ehtiyat edən Murad paşa “bir dağ ətrafını ordunun iqamətindən ötrü seçdi, özünü dağın yüksəkliyinə çəkdi” [4, s.1386-1387]. Murad paşa döyüşü ləngitmək istəsə də, cəlalilər osmanlılara hücum çəkdilər. Bundan sonra Murad paşa “Rum döyüşçülərinə hərb icazəsi verdi və rumlular (ərvam) atlara minərək asudəliklə meydana girdilər və “cəlalilərin çox adamı qətlə yetirildi” [4, s.1387]. Məğlub olmuş cəlalilər Qələndəroğlu başda olmaqla ən azı 12 min nəfərlə Ərzuruma doğru üz tutdular. Murad paşa “Əkməkçioğlu” (“Çörəkçioğlu”-A.K.) adı ilə məşhur olan İbrahim paşanı 20 min nəfərlə onları təqib etməyə göndərdi. Ərzuruma çatana kimi iki yerdə cəlalilər və təqib edənlər arasında döyüş baş verdi. Bir döyüşdə “Əkməkçioğlu” bir şey hasil edə bilmədi. İkinci döyüşdə cəlalilər taqət qalmadığına görə osmanlıların hücumu qarşısında aciz qaldılar. Cəlalilər “əyinlərinə şahın iqbal astanasının ehtiramını geyinərək

İrəvana – Əmirgunə xanın yanına adam yolladılar. Qələndəroğlu bundan sonra "ləşkərin ayağında dayandı və sərdarlar bölük-bölük İrəvana rəvan oldular" [4, s.1388]. Burada İsgəndər bəy Münşinin bu məlumatı cəlalilərin I Şah Abbas tərəfindən himayə olunduğu haqqında fikrimizi təsdiqləyir. Həmin hadisələrin bir çoxunun canlı şahidi olmuş İsgəndər bəy Münşi yazır: "Bu zaman adı cəlali sərdarları arasında yuxarıda adı çəkilən Hüseyn bəy Əzmadət [Əzmavut – A.K.] Məhəmməd paşa Qələndəroğlu və cəlali əyanları tərəfindən cahana pənah verən dərgaha gələrək səadət və şahsevənlik izharı ilə dolu olan bir məktub gətirdi. Orada yazılmışdı: "Rumiyə ilə bizim aramızdakı ixtilaf məhz alicah şaha olan məhəbbət və dostluğumuza görə başlamışdı". Əlahəzrət zilləlah şah o tayfaya qarşı dünya hökmdarlarının etdikləri kimi ədəb qaydaları ilə hərəkət etdi, onun yanına göndərilmiş adamları qiymətli xələtlər və bol ənamlarla nəvazişləndirərək paşanın və sərdarların adına iltifat məktubu sadir etdi" [4, s.1388-1389].

Lakin I Şah Abbas cəlalilərə çox etibar etmir, onları daim nəzarətdə saxlamağa çalışırdı. İsgəndər bəy Münşi bu barədə yazır ki, I Şah Abbas cəlalilərin "bəlkə də hələlik etimada layiq olmadığını düşünürdü". Bu məsələdə şahın rəyi belə oldu: "Bu il cəlali ləşkərinin Azərbaycan vilayətində qışlamasını müəyyənləşdirmək və Məhəmməd paşanı sərdarları ilə orduya gətirmək üçün ağıl və tədbirlə bəzənmiş qorxmazlıq, səxavət və şücaətlə zinətlənmiş bir dərgah üzvünü yanlarına göndərsin" [4, s.1389]. I Şah Abbas bu məqsədlə cəlalilərin yanına Ha-təm bəy Ordubadini göndərdi. Daha sonra İsgəndər bəy Münşi əlavə edir ki, "bu sətirlərin müəllifi... Hatəm bəyin xidmətinə verildi". Hatəm bəy Ordubadini bu hadisələrdə Zəncan hakimi Ağa Sultan Müqəddəm müşayiət etməli idi [4, s.1389-1390]. Cəlalilər dağınıq və pərakəndə halda İrəvana çatdıqları məqamda Əmirgunə xan əmirlərdən və əyanlardan ibarət olan bir dəstə adamını onların istiqbalına göndərdi, İrəvan qalasının üç fərsəxliyində yerləşən Üçkilsədə onlara yer verdi [4, s.1390].

Göründüyü kimi, cəlalilərin qızılbaşların tərəfinə keçməsi osmanlıları narahat edirdi. İsgəndər bəy Münşi yazır ki, cəlalilər Təbrizə yola düşəndə İbrahim paşa Əkməkçioğlunun 20 min adamla sərhəddə hücuma keçmək fikrində olduğu məlum oldu. Buna görə də, Təbriz hakimi Pirbudaq hücumun qarşısını almaq üçün Van tərəfindən xəbərdar olmaqdan ötrü Xoya və Səlmasa göndərildi, İrəvan sərhədində vəziyyətə nəzarət etmək vəzifəsi isə Əmirgunə xana tapşırıldı. Əkməkçioğlu bu qoşun qarşısında irəli gəlməyə cürət etməyərək geri qayıtmış, buna görə də Pirbudaq xan geri dönüb Təbrizə gəlmişdi [4, s.1393].

Hatəm bəyin cəlalilərlə yaxın münasibətləri, İsgəndər bəy Münşinin cəlaliləri müşahidə etməsi nəticəsində onlar şah tərəfinə keçənləri "çox cəsarətli adamlar" kimi dəyərləndirərək eyni vaxtda cəlaliləri "fikirləri düzgün olmayan", "etibarsız", "üsyana meyilli insanlar" kimi dəyərləndirirdilər [2, s.57]. İsgəndər bəy Münşi qeyd edir ki, cəlalilər bir qayda olaraq öz vaxtlarının çoxunu məclislərdə keçirir, göstərdikləri şücaət, qorxmazlıq və mərdanəliklər barədə bəhs edir və qarşılıqlı təriflər yağdırırdılar. Onlar arasında böyük-kiçikliyə bir o qədər də riayət edilmir. "Əmirgunə xanın məclisində paşa və Qara Səid sərxoş halda həddi aşdılar, ... artıq-əskik sözlər danışdılar. Qara Səid ədəbsizliklə paşanı qorxaq və qəlbiqara adam kimi təhqir etdi. ...Onlar bir-birlərini döyüşə dəvət etdilər. Cəhalət badəsinin məsti olan o iki adam əldə silah dalaşmağa başladılar və Paşa Qara Səidi yaraladı. Kürd Heydər və Ağacdan Biri araya girib onları bir-birlərindən ayırdılar. Cəlalilər buna görə də bir neçə dəstəyə bölündülər. Belə ki, Qara Səid və Təvilin qardaşı bir dəstədə, paşa öz mülazimləri və onun tərəfdarları olan bölükbaşılarla başqa bir dəstədə, Kürd Heydər, Ağacdan Biri və onların adamları üçüncü bir dəstədə qərar tutdular. Nəhayət, Üçkilsədə yol yorğunluqlarını alandan üç gün sonra hər dəstə bir-birindən ayrı hərəkətə başlayıb Təbriz darüssəltənəsində toplaşdılar" [4, s.1391]. Təbrizə gəlmiş Hatəm bəy Məhəmməd paşa, Təvilin qardaşı, Qara Səid və başqa cəlali başçıları ilə görüşdü. Görüşün məqsədi cəlalilərin "ehtiyaclarını təmin etməkdən ötrü" bir-bir qeydiyyatlarını aparmaq (siyahıya almaq-A.K.) idi [4, s.1393]. Əslində bu məlumatdan görünür ki, şahın etibarlı adamları cəlali dəstələrinin hər birini ayrı-ayrılıqda nəzarətdə saxlamaq niyyətində idilər [2, s.57].

Həmin siyahıyaalma göstərdi ki, "cəlalilərin işə yararlı üzvləri (piyadalar, tüfəngçilər və yaraqlı süvarilər) 10 min nəfər idi. Qalanları isə mehtərlər və xidmətçilər idi" [4, s.1391]. Bu

hadisələrin şahidi olmuş İsgəndər bəy Münşi bu məlumatı ilə cəlalilər arasında güclü fikir ayrılığının olduğunu sübut edir. Mənbədən görünür ki, "onların arasında dost və yaxud düşmən olduğu bilinməyənləri də vardı" [4, s.1393]. İsgəndər bəy Münşi daha sonra qeyd edir ki, Azərbaycan vəziri Xacə Məhəmməd Rzanın məsləhəti ilə cəlalilərin xüsusi mülazim və xidmətçilərindən beş yüzə qədərini ayırıb qalanlarını yaylaqlara yolladılar ki, "bahar gələndə cah-cəlal ordusunun yaylağa təşrif gətirməsi münasibətilə toplaşıb əlahəzrətin görüşünə gəlsinlər. Onların bu işləri üç gün müddətində tamamlandı və hamı dəstə-dəstə təyin olunduqları yerə yollandı" [4, s.1395].

İsgəndər bəy Münşinin əsərindən Təbrizdən çıxmış cəlalilərin sayını da müəyyən etmək olur: Xırdaçayda Qara Hüseyn 100 nəfərlə, Zəncan qəsəbəsində Kökəç Məhəmməd 500 nəfərlə, Kürd Əli üç yüz nəfərlə, Nikpeydə Əlibəy Dünyayi 300 nəfərlə, Qulu bəy Kürd 140 nəfərlə, Kürd Əli 300 nəfərlə, Miyanədə bölükbaşı Əhməd Yazıcı 40 nəfərlə. Bütün bunlar sübut edir ki, I Şah Abbas cəlalilər arasındakı fikir ayrılığından məharətlə istifadə edir, onların birləşməsinin qarşısını almaq istəyirdi. Məlumatların təhlili sübut edir ki bu fikir ayrılığı sıravi cəlalilərin hərəkatda rəhbərliyi ələ almış feodallara artıq etibar etməmələrində idi. Məlumatlardan görünür ki, cəlalilərdən 300-400 nəfər Məhəmməd bəy başda olmaqla Urmiya ətrafında qiyam qaldırmış kürdlərə qoşuldu. Qiyam tezliklə dəf edildi və qiyamçı kürdlərlə cəlalilər məhv edildi [2, s.57]. Səfəvi şahı cəlalilərlə ehtiyatla davranmağa üstünlük verirdilər. Bu, İsgəndər bəy Münşinin aşağıdakı məlumatlarından bir daha aydın olur.

Cəlalilərin bir hissəsi İsfahana gəldikdən sonra I Şah Abbas bu məqsədlə onların hər biri ilə xüsusi şəkildə davrandı, "onların hərəsini təcrübə və imtahan məhək daşına vurur, hər fərdi ... gizlicə öyrənirdi" [4, s.1397]. İsgəndər bəy Münşi qeyd edir ki, "cəlalilər və o ləvənd tayfası üsyankar və axırları olmayan [biməal] adamlardır, buna görə də onlar əgər müxaliflərin ərazisində yaşayarlarsa, canlarının qorxusundan bir-biri ilə yola gedərlər, əgər bir-birindən qorxarlarsa, biri digəri ilə düşmənçilikdə və nifaqda olar" [4, s.1404].

İsgəndər bəy Münşinin məlumatından görünür ki, cəlalilərin bir dəstəsi qızılbaş əmirləri başda olmaqla "Kürdüstana" yola salındı. İsgəndər bəy Münşi bunun səbəbini belə izah edir: "Kürdlərin başçıları etimadsız və fitnəkar adamlardır. Onlar vaxtın və zamanın tələbinə görə sərhəddə bəyənilməz işlərlə məşğul olurlar" [4, s.1404]. Şah "o tayfanı dəfələrlə barışığa, düzgünlüyə, düşmənçiliyin aradan götürülməsinə rəğbətləndirib Məhəmməd paşanı onlara əmirülümara təyin etdi... Şah onların... hamısından əmrə əməl edəcəkləri xüsusunda söz aldı, cəlalilərə Azərbaycana getmək, camaatı indi qışlaqda olan Marağa yaylaqlarında dayanmaq, onlara burdan gedəcək qızılbaş əmirlərinə birləşmək və məqsəd istiqamətinə rəvan olmaq buyuruldu" [4, s.1404]. Lakin Məhəmməd paşanın bu vəzifəyə təyin edilməsi Kürd Heydərin narazılığına səbəb oldu və o, "Kürdüstan"a gedərək Məhəmməd paşaya qarşı qiyama hazırlaşmağa başladı. Bir dəfə paşanın evində məclis qurulduğu və "badələrdən məst olduqları vaxt" Kürd Heydər paşanın xətrinə dəyən təhqiramiz sözlər işlətdi və bu hərəkəti ilə Məhəmməd paşanı qorxuya saldı. Buna görə də Məhəmməd paşa məclisdə olan və "rumilərin "gənc oğlan" adlandırdıqları xidmətçi oğlanlara Kürd Heydərin qətlə yetirilməsini işarə etdi. Onlar dərhal şəmşirlərini sıyıraraq Kürd Hüseyni və onunla birlikdə olan iki nəfər etibarlı adamını öldürdülər" [4, s.1420-1421]. Kürd Heydərin öldürüldüyünü görən mülazimləri müqavimət göstərməyin mənasız olduğunu gördülər və Məhəmməd paşa onların hamısını öz xidmətinə götürdü, mərhumun var-dövlətini isə onların arasında böldü. İsgəndər bəy Münşinin məlumatına görə, Məhəmməd paşa baş vermiş hadisəni şaha bildirdi "və onun etdiyi hərəkət bəyənildi" [4, s.1421].

Dövrün qaynağının təsdiq etdiyi kimi, I Şah Abbas cəlalilərin qüvvəsindən bir tərəfdən itaətdən boyun qaçıran kürd əmirlərinə və digər tərəfdən də Osmanlılara qarşı müharibədə istifadə etmək niyyətində idi. Şah sarayının planlarına əsasən cəlalilər Həsən Ustaclı başda olmaqla Səfəvi qoşunları ilə birləşərək Marağadan hərbi yürüşə başlayıb "Kürdüstanı" ələ keçirməli və osmanlıların nəzarətində olan ərazilərə daxil olaraq Diyarbəkri tutmalı idilər [2, s.58].

Səfəvi şahının Cəlalilərə etibar etməməsi anlaşılan idi. İsgəndər bəy Münşinin qənaətinə görə, Məhəmməd paşa "özünü zəmanənin ən şücaətli igidi hesab edir, daim qürur qanadları ilə uca göylərdə uçur və istəyirdi ki, qızılbaş sərhədində əliuzunluq edərək özünün qüdrətini daha da

yüksəklərə qaldırsın, Rumiyə arasında adı ilə iftixar etsin. O, həmişə fürsət pusqusunda dayanaraq Hümayun sərhədə qədəm [xətər – A.K.] yetirirdi" [4, s.1407]. I Şah Abbas Məhəmməd paşanı cəzalandırmaq məqsədi ilə Şürəş ülkasına hakim təyin edilmiş Salman Sultan Subaşıdan və Təbriz hakimi Pirbudaq xandan Məhəmmədə "qulaqburma vermələrini" xahiş etdi. Pirbudaq xan öz adamlarından 200 türkman əsgərini və əmirin sərkərdəliyi altında həmin sərhəd əmirlərinin 100 mülazimini göndərdi ki, onlar Salman Sultana qoşulub Ərciş və Adilcovz ülkalarını qarət edərək "üsyankarları və fitnəkarlar"ı cəzalandırsınlar. Salman Sultan öz adamları və 500 nəfər göndərilənlə birlikdə Məhəmməd paşanın məskəni olan Ərcişədək getdi, habelə 200 adamı onun qalası üzərinə göndərdi və 100 nəfəri onlara köməkçi təyin etdi. Salman Sultan yerdə qalan 200 nəfərlə qarətlə məşğul oldu. İsgəndər bəy Münşi də Məhəmməd paşa haqqında yazır ki, paşa bu məsələdən xəbərdar olandan sonra "özünü mərdanə bir adam təsəvvür edərək", azsaylı dəstəyə nəzər salaraq qaladan çıxdı və döyüşə başladı: "Qazilərin üstünlüyünü, öz ləşkərinin isə zəifliyini müşahidə edən Məhəmməd paşa özü şəxsən hərbə başladı, türkmanların biri ilə tutuşdu, o şəxsi tanımadan onu canüzən nizənin ucu ilə yəhərin üstündən qaldırıb yerin üstünə atdı. Paşa qorxusundan öz adını çəkdi və bu qüvvətli gücü ilə əsir götürüldü". Onun tərəfdarları olan rumilər isə "şir ovlayan qazi qılınclarına yem oldular" [4, s.1407-1408]. Şahın hüzuruna gətirilmiş Məhəmməd paşa I Şah Abbası aldatmaq istədi. Lakin onun Ruma xacəsər qulamı ilə göndərilən məktubları həmin adam tərəfindən şaha çatdırıldı və orada "paşanın qızılbaşlar haqqında yazdığı boş [atayel] sözlər və müxaliflərə verdiyi göstərişlər məlum oldu. Ondan belə bir xəyanət zahirə çıxdığı və daha etibarı qalmadığı üçün cah-cəlal ordusu Təbrizdən Qarabağa getdiyi vaxt" Məhəmməd paşa Pirbudaq xan tərəfindən Təbriz qalasında edam edildi [4, s.1409].

Hadisələrin gedişi göstərir ki, iki ilədək I Şah Abbasa xidmət edən Anadolu cəlaliləri hökmdarın münasibətindən narazı qalmışdılar. Osmanlı hakim dairələrinin təbliğatı, üsyançıların bağışlanması haqqındakı vədlər, vətənə qayıtmaq çağırışları da öz nəticəsini verdi. 1610-cu ilin ortalarına doğru 500 nəfərlik dəstə istisna olunmaqla bütün Anadolu cəlaliləri Osmanlı imperiyasına qayıtdılar. Qara Səidin və Hacı Məhəmmədin rəhbərliyi altında cəlalilər I Şah Abbasa sədaqətli qalaraq Ali Divanın şəxsi xidmətçiləri sırasına daxil olundular [2, s.58; 1, s.190].

Cəlalilər hərəkatına başçılıq edən rəhbərlər arasında Koroğlu xüsusilə seçilirdi. Koroğlu şəxsiyyəti və onunla əlaqədar hadisələr Azərbaycan folklorunda özünün geniş əksini tapmışdır. Tarixi ədəbiyyatda Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən P.N. Boratav olmuşdur. O, Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan "Mühimmə dəftərləri"ndən istifadə edərək Köroğlu ilə bağlı 4 sənəd aşkara çıxarmışdır [bax: 7, s.124-129].

Sovet tarixşünaslığında Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən İ.P.Petruşevski olmuşdur [8, s.326]. Arakel Təbrizli Koroğlu barədə yazır ki, "bu o Koroğludur ki, hazırda aşıqlar tərəfindən oxunan çoxlu nəğmələr bəstələmişdir" [3, s.94; 2, s.61; 1, s.191]. Yadelli işğalçılara, feodal zülmünə qarşı barışmaz mövqeyi və mübarizliyi xalq kütlələrində Koroğluya sonsuz hörmət və sevgi qazandırmışdı. Real tarixi şəxsiyyət olan Koroğlu ədalətli xalq müdriki, yenilməz qəhrəman, mahir aşıq kimi xalqın sevimlisinə çevrilmişdi. Xalqın qəhrəmanlıq və ədalətli hakim idealları Koroğlu obrazında əksini tapmışdır. Türkiyə tarixçisi Faruq Sümer Başbakanlıq Osmanlı Arxivində "Mühimmə dəftərləri"ndə Koroğlu ilə bağlı saxlanılan 8 ədəd sənədi 1987-ci ildə nəşr etdirərək onun fəaliyyəti haqqında tarixi gerçəklikləri aşkara çıxardı [bax: 9, s.9-46].

1580-ci il 25 oktyabr tarixli sənəddə Koroğlunun Bolu sancağına bağlı Gerede mahalının Sayık kəndindən olduğu bildirilir. Koroğlunun evlər basıb iki kişini yaraladığı və bir oğlanı apardığı xəbər verilir, onun ələ keçirilməsi üçün dəfələrlə təşəbbüs göstərilsə də, bir nəticə vermədiyi bildirilirdi. F.Sümerin fikrincə, 1578-ci ildə Səfəvi dövlətinə qarşı başlanılan müharibə davam etdiyi üçün Koroğlunun bundan faydalanaraq hərəkətə keçmişdi, əsgərlərin əksəriyyəti müharibəyə cəlb olunduğu üçün onun ələ keçirilməsi uğursuz olmuşdu [9, s.12; 1, s.193].

F.Sümerin fikrincə, Osmanlı ordusu Səfəvilərlə müharibəyə cəlb olunduğuna görə Koroğlunun fəaliyyəti üçün geniş imkanlar açılmışdı. Bununla yanaşı, Koroğlunun yaratmış olduğu qorxu

nəticəsində bəylər və qazılar ondan şikayət etməyə cürət etməmişdilər. Lakin bütün bunlara baxmayaraq, o, müxtəlif istiqamətdən sıxışdırıldığı üçün fəaliyyət göstərdiyi bölgəni tərk etmək məcburiyyətində qalmışdı [9, s.17]. F.Sümerin qənaətinə görə, Koroğlu bu zaman Çənlibelə (Çamlıbelə) gəlmişdi. Çənlibel dastanda adı xatırlanan Bolu ətrafında deyil, Si-vas-Tokat karvan yolu üzərindədir [9, s.18]. Çənlibel Koroğlunun əsas istinadgahı olmuşdu. Şərqi Anadoluda və Azərbaycanın qərb bölgəsində Çənlibel adlı qalalar vardır. XIX əsrə aid mənbələrdə Çənlibel qalasının adı çəkilir. A.A.Bakıxanov Xoy hakimi Cəfərqulu xan Dünbulinin bir müddət Naxçıvan yaxınlığındakı "Koroğlu Çənlibelində" yaşadığını göstərmişdir [10, s.191].

Koroğlu Tokatdan keçən karvanlardan "yol bacı" almışdı. Dastanda onun karvanbaşı ilə deyişməsi də bunu təsdiq edir. Koroğlu Çənlibeldə də sıxışdırıldığı zaman Azərbaycana gedərək I Şah Abbasın xidmətinə girmişdi [9, s.18,19-20]. Bunu dövrün mənbələri də təsdiq edir. I Şah Abbasın saray münəccimi Cəlalədin Münəccim Yəzdi "Tarix-i Abbasi" əsərində yazır: "Bu xanədanın çörəyi və duzu ilə özünün və atalarının sümüklərini bəsləmiş olan Sədlu tayfa başçısı Əliqulu bəy nankorluq edərək Osmanlıların xidmətinə girərək çaşnigir (süfrəçibaşı) vəzifəsini əldə etmişdi. Koroğlu Pasin ətrafında onu, oğlunu və anasını tutub şahın hüzuruna göndərmişdi" [11, s.256; 9, s.46; 1, s.192]. Bu bir daha sübut edir ki, Koroğlu Səfəvi şahının xidmətinə girmişdir. Lakin digər cəlali rəhbərləri kimi Koroğlunun da Səfəvi şahı ilə münasibətləri son nəticədə kəskinləşmişdi. Səfəvi-Osmanlı müharibəsinin başa çatması, Azərbaycan torpaqlarının Osmanlı işğalından azad edilməsindən sonra Koroğlu və dəlilərinin fəaliyyəti I Şah Abbası narahat etmişdi. Şərqi Anadolu və Azərbaycan rəvayətlərində dastan qəhrəmanımızın aqibəti barədə deyilir: "Səfəvi hökmdarı I Şah Abbas Koroğlunun igidliyindən xəbər tutaraq ondan komandanları arasında yer almasını istəyir. Ancaq Koroğlu "şahlar insan dəyərini bilməzlər" söyləyərək şahın təklifini qəbul etmir. Səfəvi hökmdarı təklifinin mənfi qarşılanmasına qəzəblənərək Koroğlunun başını gətirənə "sərdarlıq" verəcəyini elan etdirir. I Şah Abbasın bu qərarından xəbərdar olmayan Koroğlu yaşlandığını anlamış, buna görə Şaha hörmətini çatdırdıqdan sonra Məkkə ziyarətinə getməyə qərar verir. O, dəlilərini çağıraraq qərarını onlara bildirir, Eyvazı yerinə xələf təyin edir. Dəliləri Qazlı gölə kimi gələrək onu yola salırlar. Onlardan ayrılmadan öncə Koroğlu üzünü Çənlibelə çevirərək dağlara xitabən bir misra oxuyaraq həyatında ilk dəfə ağlamışdı. Sonra Şahın hüzuruna yollanan Koroğlu yolda İlyas və Bəhram xana rast gəlir. Onlar şahın gözündən düşərək vəzifədən uzaqlaşdırılmışdılar. Buna görə də şahın diqqətini cəlb etmək üçün Koroğlunu öldürməyə qərar verdilər. Onlar öncə Qıratı öldürürlər. Koroğlu bu iki adamın hücumu qarşısında Qıratsız heç nə edə bilməyəcəyini bilərək boynunu vurmaları üçün onlara uzadır. Onlar Koroğlunun başını Şaha aparırlar. Şah Abbas qəhrəmanın başına baxan zaman ətəyinə bir damcı qan damır. Buna görə o, "bu məsum qanıdır, siz onu igidcəsinə öldürmədiniz" deyir və Çənlibeldən gətirtdiyi üç "dəli"nin sözlərindən həqiqəti öyrənir. Dəlilər və onu sevən insanlar Koroğlunun ölümünə ağlayırlar. I Şah Abbas İlyas və Bəhram xanı İsfahan xalqına parçalatdırır və Eyvazın Çənlibeldəki hakimiyyətini təsdiq edir" [7, s.15-16; 9, s.17-18; 1, s.192].

Koroğlu öldükdən sonra dastan qəhrəmanına çevrilmiş və bunda da başlıca rolu aşıqlar, saz şairləri oynamışlar. XVII əsrin ortalarında o artıq bir dastan qəhrəmanı idi. F.Sümer yazır ki, mən Koroğlunun dastanlarda yazıldığı kimi saz şairi olduğuna inanır və bilavasitə Bolu bəyi, dağlar, Qırat və Eyvaz ilə bağlı mahnıların onun tərəfindən söyləndiyini qəbul edirəm. Mənaları təsirli, həyəcanverici olan bu mahnıları bəstələyən və oxuyan bir insan şübhəsiz cani ruhlu ola bilməz. Müharibə dövründə olsa da, bütün təbəəsini bir anda hərəkətə keçirməyi bacaran mükəmməl bir təşkilata sahib olan dövlətin hökumət mərkəzinə yaxın ərazilərdə fəaliyyət göstərməsi onun cəsur olmaqla yanaşı, tədbirli bir insan olduğunu göstərir. Çətinliklərə çarə tapması, təhlükələrdən xilas olması dastan qəhrəmanı olmasında mühüm amil olmuşdur. Koroğlunun ağıllı olduğu qədər mərd ruhlu bir insan olduğunu, silahdaşlarına qarşı şəfqətli hərəkət etdiyini söyləmək olar [9, s.21; 1, s.192-193]. Həm igid döyüşçü, mahir sərkərdə, həm də istedadlı aşıq olan Koroğlu şəxsi xoşbəxtlik deyil, xalq səadəti uğrunda mübarizə apardığı üçün

xalqın yaddaşında dastan qəhrəmanına çevrilmişdir.

Cəlalilər hərəkatının son mərhələsi (1626-1629-cu illər) Abaza paşanın adı ilə bağlı idi. Azərbaycan tarixşünaslığında bu məsələyə S.A.Məmmədovun əsərində toxunmuşdur [12, s.67; 13, s.194-203]. S.A.Məmmədovun fikrincə, Cəlalilər hərəkatının üçüncü mərhələsi (1622-1628) bilavasitə Abaza paşanın adı ilə bağlı olmuşdur. Abaza paşanın üsyanını Azərbaycan xalqının Osmanlılar və feodallar əleyhinə mübarizəsi kimi təqdim edən müəllif onun Azərbaycana toxunmadığını qeyd edir. [13, s.194]. İbrahim Peçevinin və Evliya Çələbinin yazdığına görə, Abaza paşa öz ətrafında 40 minlik qüvvə toplamışdı ki, onların da əksəriyyəti Qara Yazıcının, Canpoladın, Qələndəroğlunun, Ərəb Səidin və Təvilin dəstələrindən olan cəlalilər idi [14, s.57; 15, s.365-366; 13, s.194].

Maraqlıdır ki, İsgəndər bəy Münşinin Abaza paşanın üsyanı ilə bağlı verdiyi məlumatlar indiyədək tədqiqata cəlb olunmadığı üçün Abaza paşanın I Şah Abbasla münasibətləri öyrənilməmişdir. İsgəndər bəy Münşinin əsərindən məlum olur ki, Sultan Mustafa ikinci dəfə Osmanlı səltənətində qərar tutduqdan və xəbər əhali arasında yayıldıqdan sonra "Abaza paşa" kimi tanınmış Ərzurum bəylərbəyi Məhəmməd paşa "yeniçəri tayfası düşmənçilik etdiyinə görə" onlardan ələ keçirdiyi adamları çəkinmədən hər yerdə qətlə yetirməyə başladı, onların var-yoxlarını isə özünə götürdü" [4, s.1798]. Əslində İsgəndər bəy Münşi Abaza paşanın cəlali olduğunu təsdiq edir. O, yazır: "O, cəlalilər kimi rəftar edərək bir dəstə avara ləvəndi öz başına topladı, hal-hazırda əhali arasında "Ərzurum" adlanan Ərzərrum vilayətini özbaşına zəbt etdi. Sonra İstanbula gedib Sultan Osmanın qardaşı Sultan Muradı səltənət taxtına əyləşdirmək və yeniçəri tayfasından intiqam almaq üçün böyük qoşunla... Üsküdara kimi getdi. Hər yeri qarət və talan edərək, bircə yeniçərini də cəzasız qoymadı" [4, s.1798-1799]. İsgəndər bəy Münşinin məlumatına görə, o, iki min yeniçərini qılıncdan keçirdi. Qaynaqdan görünür ki, Osmanlı sultanı Abaza paşanın bu əməllərinə qarşı xüsusi qərar çıxarmışdı. Yüksək rütbəli adamlar Abaza paşaya qarşı çıxdığı üçün o, Ərzuruma qayıtmalı oldu. Vəziyyəti gərginləşdirən amil hakimiyyətdə olan ikitirəlik idi: Hakimiyyət nümayəndələri Sultan Muradı taxta qaytarmaqla bu vəziyyəti sovuşdurmaq istəyirdilər; yeniçərilər isə "qisasın alınacağı" qorxusundan Sultan Muradın hakimiyyətə gəlməsini istəmirdilər [4, s.1799].

Bağdadın Səfəvilər tərəfindən alınması ilə əlaqədar olaraq Osmanlı sultanı Hafiz Əfəndi paşanı baş vəzir və sərdar təyin edib qızılbaş sərhədindəki vəziyyətin tənzimlənməsini ona tapşırdı. O, sabiq yeniçəri ağasının əvəzinə başqasını təyin edib onun bütün yeniçəriləri ilə sərhədə gedib Abaza paşanı dəf etməyə, sonra isə Bağdad mülkünü qaytarmağa yolladı. Bu şəraitdə Abaza paşa "Əmir Əfəndi" adı ilə tanınmış elçisi Səid Əzimi I Şah Abbasın yanına göndərdi. Qaynaqdan görünür ki, "elçinin göndərilməsinin səbəbi belə idi: "O, Ərzurumun bəylərbəyi olduğu vaxt yaşadıqları yerin yaxınlığına görə Çuxur-Səd bəylərbəyi Əmirgunə xanla ülfət və aşinalıq yarada bilmişdi və onunla sülh və tərəqqi ilə davranırdı. Sultan vaqiəsindən və öz üsyanından sonra Abaza paşa bu üsyanın intiqamının alınacağından məyus olub Rumiyyə başçılarının, yuxarıda yazıldığı kimi, bir-birləri ilə etdikləri razılaşmadan ehtiyatlanaraq, Əmirgunə xanın vasitəsilə uca dövlətdən kömək diləyərək özünün etibarlı adamı olan ... elçisini bu səltənət sarayına göndərdi" [4, s.1803-1804].

Qaynaqdan aydın olur ki, Osmanlı hakimiyyətinin cəza tədbirlərindən sonra Abaza paşa Əmirgunə xan vasitəsilə şah hökuməti ilə əlaqə yarada bilmişdi. İsgəndər bəy Münşinin məlumatından bir daha aydın olur ki, I Şah Abbas Abazanın səmimiliyinə inanmadı. "Çünki paşa etdiyi əməlləri müqabilində rumilərin onunla düşmənçilik edəcəkləri təqdirdə ona hər hansı bir hadisə üz verəndə özünə qorxusuz bir məkan və sığınacaq yeri tapmaq istəyirdi" [4, s.1804]. Göründüyü kimi, I Şah Abbas siyasi maraqlara əsaslanaraq, "Əbazə" adının sonunda "xan" sözünü yazdıraraq... elçiyə şahanə töhfə və hədiyyələr verib "Novruz bəy" adlı Ustaclı qorçisini də ona qoşaraq Əbazənin yanına göndərdi [4, s.1804]. Mətndən görünür ki, şahın bu məsələdə ehtiyatlı olması əbəs deyildi. Çünki həmin müəllifin əsərindən aydın olur ki, Abazanın məkr və hiyləgərliyi tezliklə aşkar oldu, "bu dərgah adamlarına qarşı onun hiyləgər əməlləri üzə çıxdı" [4, s.1804].

Tezliklə Osmanlı sultanı Hafiz Əhməd paşanı Azərbaycana yürüşə göndərdi. Bu məlumat I Şah Abbasa çatdıqda əmr etdi ki, "Rum ləşkərinin

keçəcəyi yerləri azuqə və başqa zəruri şeylərdən təmizləsinlər” [4, s.1804]. Osmanlı qoşunlarının Azərbaycan ərazisindən keçməsi iki yolla mümkün idi: Ərzurum və Van yolları. Abaza paşa Ərzurumda olduğu üçün Osmanlı qoşun başçıları Diyarbəkr-Van yolunu üstün tutdu.

I Şah Abbas “izzət büsatının yaxın adamlarından olan söhbət yasovulu Rüstəm bəyi” Təbriz darüs-səltənətinə göndərdi ki, Azərbaycan bəylərbəyi Şahbəndə xanla birlikdə həmin yerlərin əmirlərini və sərkərdələrini toplayaraq Van istiqamətinə getsinlər, rumilərin keçə biləcəyi bütün yerləri tarac etsinlər, həmin diyarda azuqədən və sair mallardan əsər-əlamət qoymasınlar. “Gürcüstan”da Georgi Saakadzenin üsyanı vəziyyəti mürəkkəbləşdirən amil idi. İsgəndər bəy Münşinin məlumatına görə, “adı çəkilən Mouravinin əməlləri baş verən vaxtlarda sərhədlərdəki qorxulu xəbərlər və söz-söhbət hər tərəfə yayılmağa başladı, hər yerdə fitnələr zahir oldu” [4, s.1816-1826]. Belə bir şəraitdə “səadət və həmrəyliyindən dəm vuran Əbazə [Abaza] paşa sazişi və əhd-peymanı unudaraq etibarlı adamını Diyarbəkrə, Hafiz Əhməd paşanın yanına göndərib ona öz tabeliyini bildirdi” və şahın onun yanına göndərilmiş qorçisi Novruz bəy Ustaclını həbs etdi. Bundan sonra O, Novruz bəyin qətlinə fərman verərək, onunla gələnlərin bir neçəsinin başını vurdurdu və Hafiz Əhmədin hüzuruna göndərdi [4, s.1826]. Bu hadisədən sonra Abaza paşa Mürtəza paşanı Axəsqənin alınmasına göndərdi, özü isə Osmanlı dövləti ərazisindən qayıdan Əcəm tacirlərini tutub “tamahkarlığı üzündən o biçarələrin bütün mallarına sahibləndi” [4, s.1816,1877]. Lakin onlar Qarabağda qışlayan qorçibaşı və onun köməyinə gələn Zeynal bəy Nazirlə birlikdə Mürtəza paşanı Axəsqədən qovdular [4, s.1878].

1624-cü ildə Səfəvi qoşunları Bağdada uğurlu yürüş edib geri qayıdarkən bu “qələbənin və Rum ləşkərinin məğlubiyyəti xəbəri sərhədlərdə yayılanda” Abaza paşa “bir daha sədaqət və səmimiyyət izhar edib keçən il tutub həbs etdiyi və barəsində qətl fərmanı verdiyi qorçibaşı Novruz bəy Ustaclını geri göndərdi, özünün keçmiş əməlləri, yersiz hərəkətləri və tacirlərin mallarını zəbt etməsi xüsusunda üzrxahlıq elədi” [4, s.1881]. İsgəndər bəy Münşi Abaza paşanın bu addımını onun riyakarlığı ilə əlaqələndirir: “Rumilərin sərdarı Xəlil paşa onun dəf olunmasına yollandığından Əbazə bu dövlətdən kömək almaq niyyətində idi. Lakin onun davranışından ikiüzlülük, məkr və hiylə zahir olunduğundan Rum ləşkəri ona hücum edən vaxt ona kömək barədə qəti bir diqqət olmadı” [4, s.1881]. Qızılbaş ordusu yalnız osmanlıların Səfəvi dövləti ərazisinə soxulmalarının qarşısını almaq, sərhədləri qorumaq üçün İrəvanda qərar tutdu. Bu şəraitdə Osmanlı sərdarı Xəlil paşa Dişlər Hüseyn paşanı Axəsqəni tutmaq üçün Ərzuruma, Abazanın bu məsələdə gücündən də istifadə etmək üçün Bostan paşanı və İsa bəyi isə elçi qismində onun yanına göndərdi. Lakin Abaza paşa Bostan paşanı və İsa bəyi saxladı, Ərzurum ləşkəri ilə Çuxur-Səd sərhədindəki qızılbaş əsgərlərinə arxalanaraq “canının qorxusundan” qaladan çıxıb paşalara və əmirlərə hücum etdi, Dişlər Hüseyn paşanı və onun ləşkərini ələ keçirdi və çoxlu Osmanlı əsgərini qətlə yetirdi [4, s.1882]. Buna görə də Osmanlı sərdarı bütün qoşunu ilə Ərzurum qalasını mühasirəyə aldı. Abaza dörd ay qalada mühasirədə qaldı. Həmin vaxt Səfəvi ordusu Sultaniyyədə idi. Lakin qışın başlanması osmanlıları qalanın mühasirəsindən əl çəkməyə vadar etdi və onlar geri qayıtdılar. Abaza paşa dərhal vəziyyət haqqında məlumatı şaha çatdırdı. Lakin artıq o, şahın qarşısında etibarını itirmişdi və biz bunu İsgəndər bəy Münşinin aşağıdakı məlumatından görürük: “Əlahəzrət onun adamlarına (fikrini) açıq-aşkar izhar edib dedi: “Əbazənin işi sözü ilə bir olmadığına görə ona bir daha inanmadı. Əgər öz sözünə sadiqdirsə, qoy cəng vaxtı, yaxud başqa yerdə tutduğu Rumi əsgərlərini ali şah sarayına göndərsin və şah onları görsün, beləliklə məlum olsun ki, o, bu işləri bu xanədana qarşı dövlətxah olduğuna görə etmişdir” [4, s.1882]. Osmanlı sərdarı öz məqsədinə yetmədən geri qayıtdığına görə, Hümayun rumilərin sərhəd ətrafına hücumundan, xüsusilə Axəsqə qalasından xatircəm oldu, atının yüyənini geri döndərib əsgərlərlə vətənə və məskənlərinə qayıtmaq icazəsi verdi” [4, s.1885]. K.Frenkel yazır ki, Abaza paşa iki dəfə Səfəvi şahı ilə əlaqə yaratmaq üçün danışıqlara təşəbbüs göstərsə də, I Şah Abbas ona etibar etmədiyinə görə uğursuz olmuşdu [16, s.284].

1628-ci ildə Xosrov paşa vəzir və sərdar təyin olunduğuna görə İstanbula qaçmış gürcü mauravisi ilə birlikdə Ərzuruma doğru hücuma keçdi. Osmanlıların bir hissəsi qarət məqsədi ilə Axəsqəyə hücum edib Şəmsi xan Qazaqları əsir götürdü. [4, s.1896-1897]. Osmanlıların hücumu şəraitində Abaza paşa bəzi adamlarını Bostan paşa

və İsa bəylə birlikdə "şahın mülazimətinə göndərdi". İsgəndər bəy Münşi Abazanın bu addımını "onun qorxusu" ilə əsaslandırır. Məlumata görə Abaza paşa "Kiçik Əbazə" ləqəbi ilə tanınan qardaşı İbrahim bəyi Qəzvinə göndərmiş və onlar şahla görüşmüşdü [4, s.1898-1899]. Bu dəfə I Şah Abbas "imdad olunmamasını mürüvətdən uzaq bilərək" iqtidar sahibi olan əmirləri, o cümlədən Məhəmmədqulu xan Ziyadoğlunu, Peykər xan İyirmidördü, Kəskər hakimini bir dəstə əsgərlə Ərzuruma tərəf yolladı ki, onlar Abaza paşa ilə birlikdə qaladarlıq etməyə başlasınlar. Bu yürüşə Qorçibaşı da qoşulmuşdu. Lakin bu yardım Ərzuruma çatanadək Xosrov paşa qalanı mühasirəyə aldı. Buna görə də Qorçibaşı Təbrizə qayıtmalı oldu. Mühasirə zamanı Xosrov paşa Abazanı dilə tutaraq "sultan tərəfindən onun canına hec bir sədəmə olmayacağına" inandıraraq "Əbazəni öz himayəsinə aldı, İstanbula qayıtdı, bu tərəflə heç bir münaqişəyə başlamadı" [4, s.1899]. Buna görə də "əzəmətli əmirlərdən Yusif Sultan Axəsqə qalasını qorumağa göndərildi, tüfəngçilərin sərdarı vəzifəsinə təyin edildi, başqa əmirlər də öz vəzifələrinə qayıtdılar" [4, s.1899].

Dövrün mənbələrində cəlalilərin uzun sürən mübarizəsinin nəticəsi haqqında məlumatlara təsadüf olunmur. Güman etmək olar ki, Səfəvilərin Cənubi Qafqazdakı hakimiyyəti möhkəmləndikcə cəlalilər mübarizə meydanından sıxışdırılmış və xalq kütlələrinin azadlıq hərəkatı yeni formalar almışdı. Məlumdur ki, Osmanlı sultanının qoşunları tərəfindən məğlub edilən cəlalilərin bir qismi Səfəvi hökmdarı I Şah Abbasın himayəsinə sığınmışdır. 1608-ci ildə Ərzurum ətrafında 20 minlik Osmanlı qoşununa qarşı son döyüşdən sonra cəlalilər qızılbaşlar ölkəsinə pənah gətirmiş, Çuxursəd hakimi Əmirgunə xan Qacarın vasitəçiliyi ilə onların Azərbaycanda yerləşməsinə razılıq vermişdir [5, s.248].

Burada təqdim edilən məlumatlar bir daha təsdiq edir ki, Azərbaycan xalqının azadlıq mübarizəsi Osmanlı imperiyası daxilində baş verən xalq hərəkatı ilə səsləşir və üzvi şəkildə birləşir [5, s.245].

**Nəticə**

Görünür ki, Osmanlı-Səfəvi müharibəsinin başa çatması və Osmanlı işğalından azad olunan Azərbaycan ərazisində mərkəzi hakimiyyətin tədricən möhkəmlənməsi I Şah Abbasa Cəlali dəstələrinin fəaliyyətini tamamilə nəzarət altına almaq imkanı vermişdir. 1612-ci ildə İstanbulda Osmanlı-Səfəvi sülhünün bağlanması Cəlali dəstələrinin sərbəst fəaliyyətini xeyli çətinləşdirdiyinə görə dövrün qaynaqlarında onların fəaliyyəti ilə bağlı məlumatlar çox səthidir. 1616-1618-ci illər, eləcə də 1624-1639-cu illərdə Səfəvi-Osmanlı müharibələri dövründə Osmanlı sultanının yeritdiyi siyasətdən narazı olan ayrı-ayrı vilayət hakimlərinin mərkəzi hakimiyyətə tabe olmaqdan imtina edərək cəlali olması və ətrafına topladığı silahlı dəstələrlə uzun müddət sultan ordusuna qarşı mübarizə aparması haqqında İsgəndər bəy Münşinin verdiyi məlumatlar bir daha təsdiq edir ki, Azərbaycan Səfəvi dövlətində I Şah Abbasın mərkəzi hakimiyyəti möhkəmləndirməsi və işğal altında qalmış torpaqları azad etməsindən sonra Azərbaycanda Cəlalilərin geniş fəaliyyəti üçün heç bir zəmin olmadığına görə onların fəaliyyəti başa çatmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, //"Folklor və tariximiz" mövzusunda Respublika Elmi Konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı: 2012, s. 186-194
2. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку: Элм, 1981, 240 с.
3. Даврижеци Аракел. Книга историй. Перевод с армянского, словие и комментарии Л. А. Ханларян. Москва: 1973, 610 с.
4. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Fars dilindən tərcümə t.e.d., prof. Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2014,s.1400
5. Azərbaycan tarixi, Yeddi cilddə, üçüncü cild. Bakı: Elm, 1999, 592 s.
6. Рахмани А.А. Состояние городов и антиосманкие восстания в Азербайджане в начале XVII в. //Известия АН Азерб. ССР, серия история, философии и права, №1. Баку: Изд-во АН АзССР, 1972, с. 43-51.
7. Boratav P.N. Kör Oğlunun tarihi şahsiyeti, II. Tarih Kongresi (Ankara, 12-20 Kasım, 1943), Ankara, 1948, s. 124-129.
8. Петрушевский И.П.Очерки по истории феодальных отношений в Азербайджане и

Армении в XVI- начале XIX вв. Л.: Изд-во Ленинградского Университета, 1949, 382 с.

9. Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar. Türk Dünyası Araştırmaları. Şubat 1987, s. 9-44.

10. Бакиханов А.А. Гюлистан-и Ирам. Редаксия, комментарии, примечания и указатели академика АН АзССР З.Г.Буниятова. Баку: 1991, 304 с.

11. Molla Cəlaləddin Məhəmməd Münəccim Yəzdi. Tarix-i Abbasi. Be kuşişi Seyfulla Vəhidi. Tehran: İntişarat Vəhid. Çapı əvvəl, 1366 h.ş., 502s.

12. Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı: APİ, 1981.

13. Мамедов С.А. Азербайджан по источникам XV – первой половине XVIII вв. Баку: Элм, 1993, 240 с.

14. Петросян Ю.А. Османская империя: могущество и гибель. Истори-ческие очерки. М:Наука,1990, 279 с.

15. Peçevi İbrahim Efendi Peçevi tarihi. ç.II. Hazırlayan dr. Bekir Sıtkı Baykal. Ankara: 1992, 455 s.

16. Финкель К. История османской империи. Видение Османа. Расцвет и гибель самого мощного мусульманского государства. М:АСТ, 2010, с.843

**Amana Eldar KARBALAYEVA**
*West Caspian University*
*Doctor of Philosophy in History*
*E-mail: kerbalayeva-amin@mail.ru*

## EXPANSION AND SPREAD OF THE JALALIST MOVEMENT IN AZERBAIJAN AT THE END OF THE XVI CENTURY

**Abstract:** At the end of the 16th century the protracted wars of the Ottoman Empire with European states and the Safavids worsened the situation of the people, led to an economic crisis, an increase in market prices, higher taxes, arbitrariness of officials. As most of these events took place in Eastern Anatolia, both sides (the Ottoman court and the Safavid government) intended to use Jalali's help in their struggle. However, the analysis of these events shows that since the historical lands of Eastern Anatolia are Azerbaijani lands, these events provide ample reason to assess Azerbaijan as the main centre of the Jalali movement.The socio-economic situation in the society created conditions for the expansion of the Jalali movement. In such a situation not only representatives of the working masses but also disgruntled landowners, sipai, and sometimes even provincial leaders joined the Jalala movement. Therefore, while the "Jalali movement" was a movement against the crisis and arbitrariness in the palace, government circles and among the people, on the other hand it was joined by forces engaged in plundering and arbitrariness. The renewed warfare of Shah Abbas I against the Ottomans at the beginning of the 17th century helped the movement to spread in Azerbaijan. During the war against the Ottomans some Jalali groups took part in the liberation of Azerbaijani lands from the Ottoman occupation, as Shah Abbas I officially incorporated the leaders of various groups involved in the Jalali movement into the Safavid army of Gizilbash.
**Keywords:** Safavids, Ottoman Empire, Jalali movement, Azerbaijan.

**Амана Эльдар кызы КАРБАЛАЕВА**
*Западно-Каспийский университет*
*доктор философии по истории*
*E-mail: kerbalayeva-amin@mail.ru*

## РАСШИРЕНИЕ И РАСПРОСТРАНЕНИЕ ДЖАЛАЛИСТСКОГО ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ XVI ВЕКА

**Резюме:** В конце XVI века затяжные войны Османской империи с европейскими государствами и Сефевидами ухудшили положение народа, привели к экономическому кризису, росту рыночных цен, повышению налогов, произволу чиновников. Поскольку большинство этих событий происходило в Восточной Анатолии, обе стороны (османский двор и сефевидское правительство) намеревались использовать помощь Джалали в своей борьбе. Однако анализ этих событий показывает, что

поскольку исторические земли Восточной Анатолии - это азербайджанские земли, то эти события дают все основания считать Азербайджан главным центром джелалийского движения. Социально-экономическая ситуация в обществе создавала условия для расширения джелалийского движения. В такой ситуации к джелалинскому движению присоединялись не только представители трудящихся масс, но и недовольные землевладельцы, сипаи, а иногда и провинциальные лидеры. Таким образом, если "джалалинское движение" было движением против кризиса и произвола во дворце, правительственных кругах и в народе, то с другой стороны к нему присоединились силы, занимавшиеся грабежом и произволом. Возобновление военных действий шаха Аббаса I против османов в начале XVII века способствовало распространению этого движения в Азербайджане. Во время войны с османами некоторые джелалинские группы приняли участие в освобождении азербайджанских земель от османской оккупации, так как шах Аббас I официально включил лидеров различных групп, участвовавших в джелалинском движении, в состав сефевидской армии Гызылбаша.

**Ключевые слова**: Сефевиды, Османская империя, джалалистское движение, Азербайджан.
**Daxil olub:** 11.08.2021